May 2018

# PwC Azerbaijan Times

## 6 saylı Buraxılış



### Buraxılışın əsas xəbərləri:

- **“Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**
- **“Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**
- **“Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**
- **Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu**
- **“Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**
- **Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Qərarında dəyişikliklər edilməsi haqqında Nazirlər Kabinetinin Qərarı**
- **“Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**


Buraxılışda əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa aşağıdakı şəxslərlə əlaqə saxlaya bilərsiniz:

Arif Quliyev, Vergi və Hüquq Xidmətləri Departamentinin Rəhbəri, İdarəedici Direktor

Arif.guliyev@pwc.com

Samir Hacıyev, Direktor, Hüquqi Praktikanın Rəhbəri

Samir.hadjiyev@pwc.com

Marketinq və Kommunikasiya məsələləri üzrə Rəhbər
Aysel Süleymanova
aysel.suleymanova@pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az



© 2017 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.


### *“Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*

Qanuna sağlamlaşdırma haqqında yeni qaydalar əlavə edilib. Dəyişikliklərə əsasən, borclunun sağlamlaşdırılması sağlamlaşdırma planına uyğun olaraq həyata keçirilir. Borclu sağlamlaşdırma planını borclu və kreditorlar arasında sağlamlaşdırma haqqında qərar qəbul edildiyi gündən üç ay müddətində tərtib edir və planı kreditorların yığıncağına təqdim edir. Sağlamlaşdırma planı və ona edilən dəyişikliklər kreditorların yığıncağının qərarı ilə qəbul edilir və məhkəmə tərəfindən təsdiq edilir.

Sağlamlaşdırma prosesinə başlanılması haqqında məhkəmənin qərarı qəbul edildiyi andan aşağıdakı hüquqi nəticələr yaranır:

a) əmlak inzibatçısının Qanunun 20.4-cü maddəsində nəzərdə tutulan hüquqları nəzərə alınmaqla, borclunun təsisçilərinə (iştirakçılarına), digər idarəetmə və nəzarət orqanlarına borcluya məxsus əmlakların istifadəsi və onların üzərində sərəncam verilməsi qadağan edilir;

b) borclunun bütün kreditorlarının, borclunun təsisçilərinin (iştirakçılarının), habelə digər idarəetmə və nəzarət orqanlarının üzvlərinin borcluya qarşı iddiaları üzrə məhkəmələrin qəbul etdiyi qərarların icrası dayandırılır;

c) borclunun bütün kreditorlarının, borclunun təsisçilərinin (iştirakçılarının), habelə digər idarəetmə və nəzarət orqanlarının üzvlərinin ərizəsi əsasında borcluya münasibətdə iflas haqqında işin qaldırılmasına yol verilmir;

d) borclunun bütün kreditorlarının tələbləri, o cümlədən mübahisəsiz (akseptsiz) qaydada ödənilməli olan tələblər üzrə borclunun bank hesablarından pulların çıxarılmasına, habelə tələblərin borclunun əmlakına yönəldilməsinə yol verilmir.

### *“Yeyinti məhsulları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*

Dəyişikliklərlə, Azərbaycan Respublikasında qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi

sahəsində texniki normativ hüquqi aktların tələblərinə, gigiyenik, baytarlıq və fitosanitar tələblərə uyğunluğunun təmin edilməsi məqsədi ilə fəaliyyəti yoxlanılacaq, yeyinti məhsulları ekspertizadan keçiriləcək və həmin subyektlər qida təhlükəsizliyi qeydiyyatına alınacaq. Qida təhlükəsizliyi qeydiyyatına alınmış subyektlər dövlət reyestrinə daxil edilir və həmin subyektlərə reyestrdən çıxarış verilir.

Qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatı Qida Təhlükəsizliyi Agentliyi tərəfindən həyata keçiriləcək. Bundan əlavə, qida təhlükəsizliyi qeydiyyatına alınmamış təsərrüfat subyektlərinin fəaliyyəti qadağan olunacaq. Dəyişikliklər, 2018-ci il iyulun 1-dən qüvvəyə minir.

### *“Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*

Qanuna aşağıdakı məzmunda əlavə olunub: Ərzaq məhsulları üçün dövlət standartları yalnız tövsiyə olunan tələbləri müəyyənləşdirir və həmin dövlət standartlarının tətbiqi könüllü xarakter daşıyır. Əlavə, 2018-ci il iyulun 1-dən qüvvəyə minir.

### *Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*

İnzibati aktla (inzibati aktın qəbul edilməsindən imtina ilə) bağlı şikayət “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 73.1-ci və ya 73.2-ci maddələrində nəzərdə tutulmuş müddətlərdə (bundan sonra – müddətlər) müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma (bundan sonra – Qurum) verildiyi halda bu Məcəllənin 38.1-ci və 38.2-ci maddələrində nəzərdə tutulmuş iddia müddətlərinin axımı aşağıdakı vaxtadək dayandırılır:

- qurumun şikayət üzrə qəbul etdiyi qərardan (verdiyi yazılı cavabdan) şikayət verilməsi üçün müddətlər bitənədək (yuxarı Quruma şikayət verilmədiyi halda);
- qurumun qərarından (yazılı cavabından) yuxarı quruma şikayət verildiyi halda isə həmin qurumun şikayət üzrə qəbul etdiyi qərar (verdiyi yazılı cavabı) şikayətçiyə təqdim edilənədək.

Qeyd edək ki, dəyişikliklərdəki “Qurum”un səlahiyyətlərini, müvafiq olaraq, Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurası və mərkəzi və yerli icra hakimiyyəti orqanlarının apellyasiya şuraları həyata keçirir.

### *“Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*

Dəyişikliklərə əsasən, banklar hər bir borcalan haqqında məlumatı maliyyə bazarlarına nəzarət orqanının müəyyən etdiyi qaydada maliyyə bazarlarına nəzarət orqanında yaradılan mərkəzləşdirilmiş kredit reyestrinə verməlidir. Mərkəzləşdirilmiş kredit reyestrində toplanan məlumatlara bank sirrinin bu Qanunla müəyyən olunmuş qorunması qaydaları şamil olunur.

### *Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Qərarında dəyişikliklər edilməsi haqqında Nazirlər Kabinetinin Qərarı*

Dəyişikliklərlə, aşağıdakı gömrük idxal rüsumundan azad edilir:

- Azərbaycan Respublikası Energetika Nazirliyinin təsdiqedici sənədlərinə əsasən, iri neft emalı zavodlarının yenidən qurulması layihələri çərçivəsində ölkəyə gətirilən avadanlıqlar və materiallar.

Qərar 1 may 2018-ci il tarixindən 30 gün sonra qüvvəyə minir və 2021-ci il dekabrın 31-dək qüvvədədir.

### *“Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*

Dəyişikliklə, Qanuna aşağıdakı məzmunda əlavə edilib:

- Valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn tələblərə əməl etməlidirlər.